# TARİXİMİZİ LƏKƏLƏYƏNLƏR



*Məhərrəm* Şəmkirli

Bu yazını heç zaman yazmazdım. Amma yazdım, özü də yana-yana. Yazmağıma da səbəb ANS TV-də Afət Telmanqızının apardığı "Açıq söhbət" verilişində tarixçi alim Dilavər Əzimlinin və hüquqşunas-araşdırıcı, hüquq elmləri üzrə fəlsəfə doktoru, Milli Məclisin deputatı Fazil Mustafanın Güntay Gəncalpanın "Səfəvi kimliyinə fərqli baxış" kitabının müzakirəsi oldu. Dilavər Əzimli tarixi həqiqətin, Fazil Mustafa isə tarixi təhrif edən, onu ləkələyən bir cızmaqaraçının tərəfində idi. Mən onları dartışma meydanında baş-başa buraxıb qayıdıram məni yandıran, gör-gör göynədən məsələləri dəyərli oxucular üçün bir-bir sadalamağa.

Bu gün, 525 ildən sonra Şah İsmayıl Xətai kimi tarixi şəxsiyyətin kimliyinin müzakirəsini TV-yə çıxarmaq eyib və səhvdir. Axı belə bir sualı milyonlarla tamaşaçı auditoriyasına ünvanlamaq şanlı tariximizə və Şah babamıza ən böyük hörmətsizlikdir. Ən azından bu mövzunu gündəmə gətirənlər üçün rəzillikdir.

Mən başa düşə bilmirəm, özlərini tədqiqatçı-alim sayan və heç çəkinmədən neçə əsrlər boyu insanların formalaşmış fikir və düşüncələrini alt-üst edərək "Şah İsmayıl Xətai kimdir?" sualını necə ortaya atırlar? Və mən bu yerdə bir balaca nəfəs alıb özümdən soruşuram. Bəlkə, doğrudan-doğruya bunlar Şah İsmayıl Xətai haqqında bu günədək hələ bir şey bilmirlər, sən də başlamısan haray-həşir salmağa. Əgər bu həqiqətən belədirsə, onda bunların yaddaşlarını bir balaca təzələyim.

On dördüncü əsrin sonunda Səfəvilər xeyli qüvvətləndi. Bunun da səbəbi Ağqoyunlu dövlətinin iki hissəyə parçalanması, Azərbaycanda feodal pərakəndəliyinin hökm sürməsi, kənd təsərrüfatının və ticarətinin tənəzzülü, feodallar arasında olan müharibələr idi ki, bu da vahid Azərbaycan dövlətinin yaradılmasını qaçılmaz edirdi. 1501-ci ildə İsmayıl özünü Təbrizdə şah elan etdi, beləliklə də, tarixdə yeni bir dövlət - Səfəvi dövləti yarandı. Dövlətin idarə olunmasında əyalətlərin rəhbərləri mühüm rol oynayırdı, dövlət vəzifələrində Azərbaycan türkləri çalışırdı, yazışmalar Azərbaycan türkcəsində aparılırdı.

Bu dövlətin yaranmasının böyük tarixi əhəmiyyəti danılmazdır. Bu tarixi əhəmiyyət nə ilə əlaqədar idi? Əvvəla, Azərbaycanda təsərrüfatın və mədəniyyətin inkişafına böyük şərait, imkan yaranmışdı, yadellilərə qarşı mübarizə asanlaşmışdı. Ən əsası isə Azərbaycanın ərazi bütövlüyü yenidən bərpa olunmuşdu.

1506-1508-ci illərdə Səfəvilər Bağdad şəhəri də daxil olmaqla Bitlisi, Xilatı, Diyarbəkiri, Ərəb İraqını ələ keçirmişdilər. Bunun nəticəsində Səfəvi dövləti qərbdən Osmanlı imperiyası, şərqdən isə Şeybanilər dövləti ilə həmsərhəd oldular.

Hörmətli bəylər, məgər bir tarixi şəxsiyyətin, dövlət başçısının öz milləti qarşısında göstərdiyi bu qədər xidmət sizlər üçün azdır? Əgər elədirsə, onda siz öz xidmətlərinizi sadalayın görək nə etmisiniz?

Son illər qardaş Türkiyədə və Azərbaycanda Şah İsmayıl Xətai haqqında tarixi həqiqətləri təhrif edən, böhtan xarekterli kitablar nəşr olunur, qəzet, jurnal yazıları işıq üzü görür. Hətta böyük tamaşaçı kütləsinin maraqla izlədiyi "Möhtəşəm yüz il" teleserialında da Şah İsmayıl Xətai ədalətsizcəsinə aşağılanır.

Deyək ki, bəzi türk yazarlarında, alimlərində Şah babamıza bir qısqanclıq var. Bəs onda özümüzünkülərə nə olub? Tarixi faktlara söykənən də, söykənməyən də əlinə qələm alıb (qələm onlara qənim olsun) hədyanlar, iftiralar, böhtanlar yağdırmaqla Şah İsmayılın üzərinə gedirlər.

Heç unuda bilmirəm, bir neçə il bundan qabaq üzdəniraq bir jurnalist (etik normalara uyğun olaraq onun adını çəkmirəm) "Azadlıq" qəzetində Xətainin adamyeyən olduğu haqqında geniş bir yazı yazmışdı. Və bu iyrənc, ikrah doğran yalanı uydurub yazmaqda məqsədi nəydi? Kimlərə xidmət edirdi, onu bilmədim. Bu gün də bilmirəm. Səhv etmirəmsə, rəhmətlik B. Vahabzadə o yazıya çox kəskin reaksiya vermişdi.

Bu gün çoxları üçün ən baxımlı kanal olan ANS-də (mənim üçün isə akademik C.Əliyevlə Mirşahin arasında olan qovğadan sonrakı baxımlı ANS yoxdur) üzdəniraq kitab müəllifinin Xətaini adamyeyən, öz anasını qılıncdan keçirən cəllad, at oğrusu kimi verməsi tariximizə, tarixi şəxsiyyətlərimizə qarşı məqsədli şəkildə aparılan ən iyrənc kampaniyadır.

Adamın ürəyini ağrıdan, onu əsəbləşdirib özündən çıxaran, narahat edən Fazil Mustafanın Şah İsmayıl Xətai və Səfəvi dövləti haqqında səsləndirdiyi qeyri-obyektiv fikirləridir. Deputatın dediyinə görə bu gün İran adlanan mollakrat ölkədə dili, məktəbi, mətbuatı, TV-si, bir sözlə, heç bir insani hüququ olmayan, hətta evdə belə öz ana dilində danışması yasaq edilmiş 35 milyondan artıq olan bir millətin zavallı, zəlil gündə olmasının ən böyük günahkarı, sən demə, Şah İsmayıl Xətai imiş. Çünki o, dövlət başçısı yox, təriqət başçısı - şeyx olub. Müsəlmanlar arasında barışmaz din ayrılığı yaradıb. İmam Əliyə onun ucbatından yüz illər boyunca lənət yağdırılıb.

Hörmətli Fazil bəy, bu gün sizə islam lazımdır, yoxsa hər birimizin qürur duyacağımız obyektiv tarixi həqiqətlər? Doğrudur, İslam da lazımdır,özü də təmiz islam. Amma bu gün təəssüf hissiylə qeyd etmək istəyirəm ki, istər qonşumuz İran İslam Respublikasında, istərsə də, islamın beşiyi olan torpaqlarda təmiz islam deyilən heç nə yoxdur. İran İslam Respublikasında bu gün insanlara verilən dəyərə baxın! İslamı əlində bayraq edərək fars şovinistləri 35 milyonluq bir xalqın öz ana dilində danışmasını yasaq etmişlər. Doğma ana dilində danışanlar işgəncələrə məruz qalırlar. Buna nə ad vermək olar? Bu hər şeydən əvvəl böyük tarixi olan bir xalqa qarşı təcavüz deyilmi? Məgər islam fars şovinistlərinə bunlarımı öyrətmişdir?

Fazil bəy, siz Azərbaycan alimlərini bu gün ortaya fundamental əsər qoya bilməməkdə suçlandırırsınız. Mən sizinlə tam razıyam. Doğrudan da bu gün Azərbaycan elmində bir durğunluq, geriləmə hökm sürür. Yəqin ki, yadınızdadır, sovet dönəmində Azərbaycanda barmaqla sayılacaq qədər akademik var idi. Onların da hər biri elm sahəsində böyük uğura imza atmış tədqiqatçı alimlər idi. İndi kimi dindirirsən deyir elmlər namizədiyəm, doktoruyam, professoram, akamedikəm. Bu qədər alimi olan ölkə ən azından gərək dünya elminin qabaqcıllarından biri olsun. Amma çox təəssüf ki, bizim alimlərin səsi Biləcəridən o tərəfə keçmir.

Bu yaxınlarda bir dostumun koordinasiya şurasında doktorluq işinin müzakirəsinin stenoqramını gözdən keçirdim. Elmlər namizədlərinin, professorlarının, AMEA-nın müxbir üzvlərinin dissertanta verdikləri məntiqsiz sualları oxuyub təəccübləndim. Deməli, məsələ gün kimi aydındır...

Bir neçə il bundan qabaq Milli Məclisdə təyinatlı deputatlardan bir qoçağı qayıtdı ki, bəs deməzsənmi böyük Nizami Həmin an bu sərsəmdən soruşsaydın ki, sənin anan kim olub, inandırıram sizi, doğru-dürüst cavab verə bilməzdi. Amma 870 il özündən əvvəl yaşamış Nizami Gəncəvinin anasının milliyyətcə kimliyini deyirdi. Çünki onun "elmi", "savadı" buna imkan verir.

Ağzımızı açanda beynəlxalq təşkilatların toplantılarında, xarici ölkələrə rəsmi və qeyri-rəsmi səfərlərimizdə ,ölkəmizdə düzənlənən beynəlxalq konfranslarda və s. bəyan edirik ki, erməni torpaqlarımızın 20 %-nı işğal edib. Biz özümüzü və beynəlxaq qurumları aldadırıq. Əslində, bu gün torpaqlarımızın 20%-ı yox, 80%-i işğal olunub. Məgər indiki Ermənistan deyilən coğrafi məkanda tarixən ermənilər yaşayıb? Axı o yerlər də qədimdən bizim ata- baba torpaqlarımız olub. Nədən biz təkzibolunmaz tarixi faktları bu gün qeyri- insani mahiyyət kəsb etməkdə olan, qəddarlaşan dünyanın beyninə yeritmirik.

Ədəbiyyatda özlərini klassiklərdən də istedadlı, bacarıqlı sayan, onların yaradıcılığına tüpürən modernistlərdən birisi (adını unutmuşam) xalq qəhrəmanı Koroğlu haqqında yazdığı romanda onu ləyaqətsiz, əxlaqsız, uşaqbaz bir obraz kimi təsvir edir. Tez-tez öz-özümdən qətiyyətlə soruşuram: Biz nə vaxta kimi yad baltalara sap olub kökümüzü baltalayacayıq? Nə vaxta kimi özümüzü kəsən qılınc olacağıq?! Bəsdir yad qablarında yallandığımız!

Ey özünü alimi-biəməl sayanlar, məgər sizlər araşdırmağa, tədqiq etməyə mövzu tapmırsınız? Gedin Təbrizin, Dərbəndin, Borçalının, İrəvanın və neçə-neçə şəhərlərimizin, qədim yaşayış məskənlərimizin doğru-dürüst tarixini yazın. Dünya arxivlərində, kitabxanalarında gecələyin, toza-torpağa batın, dünyaya tanıdın bu xalqı. Şaumyanların, avakyanların, koçaryanların, serjilərin Azərbaycan türkinin qanına susayan minlərlə ermənilərin iç üzünü açın. Biz sadə oxucular da qürurla deyək ki, bax, budur əsl tarix. Bəsdir bir-birinizdən köçürdüyünüz, bəsdir yanlışıqları təkrar elədiyiniz. Geci-tezi var, bir gün bu xalq oyanıb onun tarixiylə, mədəniyyətiylə bağlı yazdığınız yalanlara, böhtanlara görə sizləri məşər ayağına çəkəcək.